525- ci qəzet

20 yanvar / 2021

Yubiley 15

Facebook.com/525.az Instagram.com/525ciqezet

# Akademik İsmayıl Hacıyevin 70 yaşı qeyd olunub



AMEA Naxçıvan Bölməsində Azərbaycan elminin görkəmli nümayəndəsi, AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi İsmayıl Hacıyevin 70 illik yubileyi münasibəti ilə "İsmayıl Hacıyev alim və ictimai xadim kimi" mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli akademik İsmayıl Hacıyevin həyat yolu və zəngin elmi fəaliyyətindən bəhs edib. Bildirib ki, İsmayıl Hacıyev 1951-ci il yanvarın 21-də Culfa rayonunun Xanağa (indiki Xanəgah) kəndində müəllim ailəsində dünyaya göz açıb. Xanağa və Göydərə kənd məktəblərində orta təhsil alıb, 1974-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini fərqlənmə diplomu ilə bitirib. O, 1974-1977-ci illərdə Xanağa və Xoşkeşin kənd məktəblərində müəllim, 1978-ci ildən Naxçıvan Dövlət Pedaqoji İnstitutunda fəaliyyət göstərib. Burada müəllim, baş müəllim, dosent, dekan müavini, dekan, elmi işlər üzrə prorektor və tədris işləri üzrə prorektor vəzifələrini uğurla icra edib. 1992-ci ildə "Böyük Vətən müharibəsi illərində Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında qadınların iştirakı (1941-1945-ci illər)" mövzusunda namizədlik, 1999-cu ildə "Naxçıvan Muxtar Respublikası Azərbaycanın milli dövlətçilik tarixində" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə edib.

"Onun "Naxçıvan Muxtar Respublikası Azərbaycanın milli dövlətçilik tarixində" adlı doktorluq dissertasiyası tarix elmimizin mühüm nailiyyətlərindən biridir", - deyən professor F.Səfərli zəhmətkeş alim, bacarıqlı təşkilatçı İ.Hacıyevin orta məktəb müəllimliyindən elmin ən ali pilləsi olan akademikliyə qədər keçdiyi keşməkeşli elmi fəaliyyəti haqqında məlumat verib. Alim vurğulayıb ki, muxtar respublikanın aparıcı ali təhsil müəssisələrindən biri olan Naxçıvan Dövlət Universitetinin klassik təhsil müəssisəsi kimi formalaşmasında İsmayıl Hacıyevin xüsusi əməyi var. Məhz həmin təşkilatçılıq qabiliyyəti sayəsində Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi artıq inkişaf etmiş elm müəssisələrindən birinə çevrilib.



Tədbirdə Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru Elman Cəfərli "Akademik İsmayıl Hacıyevin ictimai fəaliyyəti" mövzusunda məruzə edib.

Məruzədə vurğulanıb ki, tanınmış ziyalı, təcrübəli tədqiqatçı alim İsmayıl Hacıyev ölkə və muxtar respublika mühitində ictimai-siyasi baxımdan fəallığı ilə seçilən şəxsiyyətdir. O, aydın siyasi mövqeyi olan, qətiyyətli, dönməz əqidəli ictimai xadimdir. Dövlətimizin elm siyasətində özünəməxsus yer tutan alim AMEA-nın Naxçıvan Bölməsinə rəhbərlik etdiyi 18 il ərzində həm nümunəvi elmi-təşkilati bacarıq nümayiş etdirmiş, həm də Azərbaycan elmi-ictimai mühitinin tanınmış siması kimi bu siyasətin həyata keçirilməsinə özünün real və sanballı töhfəsini verib. Onun aktual məsələlərlə bağlı ölkə mətbuatındakı çıxışları vətənpərvər, aydın, prinsipial mövqeyinə görə diqqət çəkir. Yüksək əxlaqi keyfiyyətləri, sadəliyi, təvazökarlığı, məsuliyyətliliyi, əsl vətənpərvər mövqeyi ilə seçilən bu Azərbaycan ziyalısı ömrünü Azərbaycan dövlətçiliyinin, Naxçıvanşünaslığın tədqiqinə həsr etmiş və bu gün də bu ali missiyanı uğurla davam etdirməkdədir.

Daha sonra Naxçıvan Dövlət Universitetinin əməkdaşı, tarix elmləri doktoru Sevinc Abbasovanın "Azərbaycan tarixinin öyrənilməsində akademik İsmayıl Hacıyevin rolu", AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin "Akademik İsmayıl Hacıyevin araşdırmalarında Naxçıvan tarixi məsələləri" və həmin İnstitutun "Qafqaz tarixi" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyevin "Akademik İsmayıl Hacıyevin elmi tədqiqatlarının əsas istiqamətləri" mövzusunda məruzələri dinlənilib.

Azərbaycan elminə çoxlu sayda tarixçi bəxş etmiş alimin bir elm xadimi və pedaqoq kimi fəaliyyətindən danışan məruzəçilər qeyd ediblər ki, məhz onun rəhbərliyi ilə 9 nəfər elmlər doktoru, 20 nəfər fəlsəfə doktoru öz müəllimlərinin layiqli davamçılarına çevriliblər.

Bildirilib ki, İsmayıl Hacıyev Naxçıvanşünaslığın tədqiqi sahəsində xüsusi yer tutan alimlərdəndir. Ulu öndər Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti, Heydər Əliyev siyasəti və Azərbaycan tarixi məsələləri, Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvanın yeri, Azərbaycan Xalq Cümhuriyyətinin Naxçıvanla əlaqələri, Araz-Türk Respublikasının tarixi, Naxçıvan bölgəsinin ərazi taleyi, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi tarixi, ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və soyqırım siyasəti və digər məsələlər alimin elmi fəaliyyətinin əsas istiqamətlərini təşkil edir. Onun uzunmüddətli tədqiqatları sayəsində unudulmuş, araşdırılmamış şəxsiyyətlər tədqiqata cəlb olunub, elmi dövriyyəyə daxil edilib. Sovet dövründə tariximizə qarşı nümayiş olunan qərəzli mövqe bəzi həqiqətlərin təhrif olunması, gizlədilməsi ilə nəticələnib. Bununla əlaqədar bir çox tarixi həqiqətlərin üzə çıxarılmasında, mübahisəli məsələlərə aydınlıq gətirilməsində İsmayıl Hacıyevin misilsiz əməyi olub.

Akademikin elmimizə, tariximizə göstərdiyi xidmətlər dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. İ.Hacıyev Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əməkdar elm xadimi" fəxri adına, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi xatirə medalı, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi xatirə medalı ilə təltif edilib, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, AMEA Rəyasət Heyətinin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri fərmanlarına layiq görülüb.

Qeyd olunub ki, İ.Hacıyev Azərbaycan tarixinin müxtəlif problemlərinin araşdırılmasında öz imzasının atmış dəyərli elm adamı kimi nəinki respublikamızda, eləcə də ölkə hüdudlarından kənarda da tanınmış elm adamıdır. Onun əsərləri Türkiyə, Rusiya, ABŞ, Gürcüstan, İngiltərə, Polşa, Çexiya, İtaliya, Xorvatiya, Cənubi Koreya, Tunis, Qazaxıstan, Özbəkistan və başqa ölkələrdə işıq üzü görüb.

Sonda yubilyar çıxış edərək, əməyinə verilən yüksək qiymətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.